# *AKP rəsmisi:* "Azərbaycan qazının Suriyaya nəql olunması əlaqələrimizi daha da gücləndirəcək"

**"Azərbaycan qazının Türkiyə ərazisindən keçərək Suriyaya nəqli qardaş ölkə ilə əlaqələrimizi daha da gücləndirəcək".**

Bu sözləri Türkiyə-Suriya təbii qaz boru kəmərinin açılış mərasimində qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyasının Elbəyli rayonu üzrə təşkilatının sədri Nəcməddin Dönməz jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu, tarixi hadisədir. "Belə hadisənin iştirakçısı olmaqdan, belə bir mühüm tədbirdə iştirak etməkdən qürur duyuram. Ümid edirəm ki, Suriyanın bərpasında, enerji təhlükəsizliyinin artırılmasında Azərbaycan bundan sonra da öz təşəbbüslərini davam etdirəcək", - deyə N.Dönməz qeyd edib.

---

Azərbaycan. - 2025.- 3 avqust (№ 160).- S.3.